# Xalq artisti Mehriban Zəki: Şuşada mədəniyyət tədbirlərinin təşkili çox önəmlidir

***İlk növbədə onu deyim ki, nəhayət, böyük bir həsrətdən sonra biz Şuşadayıq. Azərbaycanın qədim şəhəri işğaldan azad edilib. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan olunub.***




Daha əvvəl burada “Xarıbülbül” festivalı keçirilib. Vaqif Poeziya Günləri bu şəhərdə keçirilən ikinci mədəni tədbirdir. Belə tədbirlərin təşkili çox önəmlidir. Çünki bir ölkənin tarixini, keçmişini öyrənmək üçün mütləq onun mədəniyyətinə də müraciət etmək lazımdır. Bu tədbir də məhz ona söykənir, ona arxalanır.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Xalq artisti Mehriban Zəki söyləyib. Vaqif Poeziyası Günləri çərçivəsində keçirilən tədbirlərin rəngarəngliyini qeyd edən müsahibimiz aktyorlar tərəfindən də klassik poeziyadan nümunələr təqdim olunduğunu bildirib.

Xalq qəzeti.- 2021.- 1 sentyabr.- S.2.